**Karaelmas Journal of Social Sciences** | Karaelmas Sosyal Bilimler Dergisi
**Volume 2 Number 2 December 2024** | Cilt 2 Sayı 2 Aralık 2024

# MİLLİ MƏFKURƏMİZİN SÜTUNLARINDAN - ƏSGƏR AĞA GORANİ

Leyla ABASOVA*

**Xülasə**

*Görkəmli ədib, pedaqoq, tərcüməçi, jurnalist və maarifçi kimi tanınan Azərbaycan xalqının dəyərli oğlu Əsgər bəy Adıgözəlovun (Gorani) həyatı, ədəbi və ictimai fəaliyyəti olduqca geniş və əhatəlidir. Məqalədə Əsgər Ağa Goraninin müxtəlif sahələrdə fəaliyyət istiqamətləri araşdırılmış, Vətən üçün gördüyü işlər üzə çıxarılmışdır. Məqalədə müəllif qeyd edir ki, Ə. Gorani Azərbaycan xalqının təhsil və mədəniyyətinin inkişafında, mətbuatın təşəkkülündə müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Məqalə müəllifi həm də qeyd edir ki, Ə. Goraninin həyatda əsas amalı xalqın maariflənməsi, ictimai şüurun inkişaf etdirilməsi olmuş və bunun üçün də təhsilin olmasını vacib hesab etmişdir. Məhz bu səbəbdən daim həm mənəvi, həm də maddi cəhətdən öz həmvətənlərinə dəstək olmuşdur. Məqalədə həm qeyd olunur ki, maarifpərvər şəxsiyyətlərin sayəsində cəmiyyət daim tərəqqi edib, irəliləyişlər baş verib. Məqalə müəllifi bu kimi şəxsiyyətlərin həyatının tədqiq edilməsi və öyrənilməsini vacib hesab edir.*

***Açar Sözlər:*** *Pedaqoq, Ədib, Jurnalist, Maarifçi, Tərcüməçi*

# *ASGAR AGA GORANI – FROM THE PILLARS OF OUR NATIONAL IDEOLOGY*

**Abstract**

*The life, literary, and public activities of Asgar Bey Adigozalov (Gorani), a distinguished figure among the Azerbaijani people, known as a prominent writer, translator, journalist, and educator, are quite extensive and comprehensive. This article examines the various fields of activity of Asgar Agha Gorani and highlights his contributions to the homeland. The author notes that A. Gorani was one of the outstanding personalities who made exceptional contributions to the development of education and culture of the Azerbaijani people and the formation of the press. The main goal of A. Gorani's life, as highlighted by the author, was the enlightenment of the people and the development of public consciousness. He considered education crucial for achieving this goal and supported his compatriots both morally and financially. The article also emphasizes that thanks to enlightened personalities like A. Gorani, society has constantly progressed. The author believes it is important to study and analyze the lives of such personalities.*

**Keywords:** *Pedagogue, Writer, Journalist, Educator, Translator*

# *MİLLÎ İDEOLOJİMİZİN DİREKLERİNDEN- ASKER AĞA GORANİ*

**Özet**

*Azerbaycan halkının değerli evladı, seçkin bir yazar, pedagog, çevirmen, gazeteci ve eğitimci olarak tanınan Asker Bey Adıgözelov'un (Gorani) hayatı, edebî ve toplumsal faaliyeti oldukça geniş ve kapsamlıdır. Makalede Asker Ağa Gorani'nin çeşitli alanlardaki faaliyetleri araştırılarak Anavatan için yaptığı çalışmalar ortaya konmuştur. Makalede A. Gorani'nin Azerbaycan halkının eğitim ve kültürünün gelişmesinde, basının kuruluşunda olağanüstü hizmeti olan seçkin şahsiyetlerden biri olduğu üzerinde durulmuştur. Ayrıca A. Gorani'nin hayattaki asıl görevinin halkın eğitimi, toplumsal bilincin geliştirilmesi olduğu ve bunun için eğitim almanın önemli olduğunu belirtmiştir. Bu nedenle hem maddi hem de manevi olarak vatandaşlarına her zaman destek olmuştur. Yazıda ayrıca aydın şahsiyetler sayesinde toplumun sürekli ilerlediği ve ilerleme kaydedildiği de belirtiliyor. Bu türden çalışmalarla böyle değerli kişilerin yaşamlarını incelemenin ve öğrenmenin önemli olduğu düşüncesindeyiz.*

**Anahtar Kelimeler:** *Pedagog, Yazar, Gazeteci, Eğitimci, Çevirmen*

* Dr. Öğr. Üyesi, Bakü Devlet Üniversitesi/ Azerbaycan, redaksiya.kafedra@gmail.com, ORCID: 0000-0002-8971-6456

**DOI: 10.70819/kares.1519988**

**Received**/*Geliş tarihi:* 21.07.2024 **Accepted**/*Kabul tarihi:* 12.11.2024

## Extended Summary

Asgar Agha Gorani was born on May 3, 1857 in the village of Goran (now a settlement in Boluslu Village Administrative District of Goranboy region) of Ganja Province. Asgar Gorani Adigozalov is the son of the author of the famous work "Garabaghname" Mirza Adigozal Bey (1779-1848) Hagverdi Bey. Although the Adygozalovs were originally from Gazakh, they later moved to Karabakh and Mirza Adigozal Bey was born here. Adigozal Bey later moved to Goran village of Ganja province and settled here permanently. Asgar Agha Gorani closely cooperated with the newspaper "Ekinchi", about 40 letters were published in this newspaper. He was always interested in the continuous publication of the newspaper "Ekinchi", for this he supported H. Zardabi both financially and morally. Asgar Agha Gorani's journalistic activity is connected with the newspaper "Ekinchi". As a correspondent, his articles on various topics were published in "Ekinchi". Asgar Agha Gorani's publicist articles were published in the" Mektubat", "Science News", "Af ali-ahli-dahat", departments of "Ekinchi". Most of his writings published in "Ekinchi" were in the topic of agriculture. His goal was to inform his compatriots with advanced agricultural knowledge and help them build their households based on new rules.

Asgar Agha Gorani's good knowledge of Russian and European languages (Russian, French, and German) led him to work as a translator. He had a translation from M.Y. Lermantov, unfortunately, it has not yet been possible to obtain this translation.

Agha Gorani played a great role in compiling and writing textbooks in his native language. He has prepared textbooks on arithmetic, alphabet, and geography.

It is his play "Trotting in old age" that has come down to us from his works. This work was published in Azerbaijani in 1892 in the printing house of Kamal Unsizade in Tbilisi. The play was staged by amateurs in Tbilisi long before it was published. On April 8, 1890, the newspaper "Tercuman" in Bagchasaray city published the news of its special correspondent about it. In 1903, the "Sharg-rus" newspaper reported in its article "Islamic theater in Tbilisi" that amateurs were preparing for the performance of the play "Trotting in old age". And the money from the tickets sold for the performances was donated to the education of poor students.

He is the author of the historical novel "Black Wind". The work tells about the attack of Agha Muhammad Shah Qajar on Transcaucasia. Unfortunately, this work has not yet been obtained. Information about this work was published in the newspaper "Novoye obozreniye".

Asgar Agha Gorani was one of those who stood at the forefront of the struggle for the expansion and strengthening of the ideas of enlightenment. M. F. Akhundov was one of those who continued the dramaturgical traditions and laid the foundation of our national theater. Asker Aga Gorani was the first performer of the role of Haji Gara in the play "Haji Gara", which was staged for the first time in Azerbaijan. This performance was played by Asgar Aga Gorani and his classmates, who studied at the realny gymnasium.

In 1878, on the initiative of Hasanbey Zardabi, N. Vezirov, the student of the Petrovsky-Razumovsky Agricultural Academy in Moscow, organizes an association called "Imdadiyya". Asker Aga Gorani was one of the most active members of this association. The "Imdadiyya" association gathered Azerbaijanis studying in Moscow and Petersburg. The main goal of the association's activities was to prepare many fighters to eradicate oppression. They fought against ignorance and vulgarity. Asgar Agha Gorani was the chairman of the "Neshri-maarif" society for about two years.

There are very few studies conducted about him. Nariman Zeynalov's "History of the Azerbaijani press "(1973); "Misir Mardanov and Adalat Tahirzadeh's" Azerbaijanis who studied at higher schools until 1920: an encyclopedic book. (I volume, 2018), "Asker Aga Adigozalov Gorani" by Kovsar Tarverdiyeva (1977); "From darkness to light" by Gulhuseyn Kazimli (2016). However, it should be especially noted that the life of such enlightened people, intellectuals whose hearts beat with the motherland, should be constantly involved in research and the public be informed about them. And the good deeds done by these personalities are an example for future generations. At the expense of these zealous sons, society has developed, and achievements has been made in various fields of science. When studying the life and work of A. Gorani, it turns out that in every work he did, there was love for the country.

## Giriş

XIX əsr Azərbaycan tarixi üçün mühüm əhəmiyyətli bir dönəmdir. İstər maarifçilik, istər ədəbiyyat, istərsə də milli mətbuatımız bu dönəmdə təşəkkül tapmış və inkişaf etmişdir. "1828-ci ildə Azərbaycan torpaqları Rusiya imperiyası tərəfindən işğal edildi. Bu mühüm tarixi hadisə Azərbaycanın ictimai-mədəni və deməli, ədəbi həyatında mühüm dəyişikliklərə səbəb oldu. Rusiya işğalından sonra Azərbaycan ədəbiyyatında Qərb meylləri güclənməyə başladı. Bunun təsiri ilə milli və realist dünya motivləri ədəbiyyata öncülük edirdi".[1] Bu qarışıq dönəmdə milli ideologiyanı, milli məfkurəni inkişaf etdirən ictimai xadimlər, yazar və şairlər, maarif xadimləri yetişdi. Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Məhəmməd Tağı Sidqi, Abbasqulu Ağa Bakıxanov, Qasım Bəy Zakir kimi ədiblər öndə gedən yazarlardır. Bunlardan biri də həyatını xalqının maariflənməsinə həsr etmiş Əsgər Ağa Goranidir.

Görkəmli ədib, pedaqoq, tərcüməçi, jurnalist və maarifçi kimi tanınan Azərbaycan xalqının Əsgər bəy Adıgözəlovun (Gorani) həyatı, ədəbi və ictimai fəaliyyəti olduqca geniş və əhatəlidir. Məsələn, ədib kimi yazdığı əsərlər, pedaqoq kimi dərsliklərin yazılmasında sərf etdiyi əmək, tərcüməçi kimi Rus və Avropa dillərindən etdiyi tərcümələr, jurnalist kimi "Əkinçi" qəzeti ilə əməkdaşlığı, maarifçi kimi isə təhsil sahəsində gördüyü işlər çox ibrətamiz və əvəzsizdir.

Araşdırmalar nəticəsində bəlli olur ki, onun fəaliyyət sahələri hələ də lazımi qədər tədqiq edilməmişdir. Ə. Gorani haqqında Nəriman Zeynalovun "Azərbaycan mətbuat tarixi" kitabında (ADU nəşriyyatı, 1973); Kövsər Tarıverdiyevanın müəllifi olduğu "Əsgər Ağa Adıgözəlov Gorani" (İşıq nəşriyyatı, 1977), Gülhüseyn Kazımlının "Qaranlıqdan işığa" ("Şuşa" nəşriyyatı, 2016) və nəhayət son dövrlərdə Misir Mərdanov və Ədalət Tahirzadənin "1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı"nda -I cild."Təhsil" nəşriyyatı, 2018) kitablarından məlumat əldə etmək mümkündür. Bu məqalədə Əsgər Ağa Goraninin həyat və fəaliyyətinə nəzər salınmış, onun Vətən üçün gördüyü işlər önə çıxarılmışdır.

## 1.Əsgər Ağa Goraninin Həyatı

Əsgər Ağa Gorani 3 may 1857-ci ildə Gəncə qəzasının Goran (İndiki Goranboy rayonunun Boluslu kənd inzibati dairəsində qəsəbə) kəndində anadan olmuşdur.

Əsgər Gorani Adıgözəlzadə məşhur "Qarabağnamə" əsərinin müəllifi Mirzə Adıgözəl bəyin (1779-1848) oğlu Haqverdi bəyin oğludur. Adıgözəlovlar kökcə Qazaxdan olsalar da sonralar Qarabağa köçüblər və Mirzə Adıgözəl bəy burada anadan olub. Adıgözəl bəy sonralar Gəncə qəzasının Goran kəndinə köçüb və burada daimi məskən salıb.

Gürcüstan Mərkəzi Dövlət Tarix arxivində saxlanılan bir vəsiqədə Ə. Goraninin ictimai mənşəyi haqqında belə məlumat verilir: "O, mülkədar ailəsindən çıxmışdır. Onun Yelizavetpol və Cavanşir qəzalarında çoxlu kəndi və torpağı və Yelizavetpolda evi, Hacıkənddə yaylağı olmuşdur".[2] Bu faktla Ə. Goraninin maddi imkanlara malik olması onun müstəqil mətbuat yaratmaq istəyindən, kasıb tələbələri oxutmasından və s. bəlli olur.

Əsgər bəy ilk təhsilini Gəncədə üçüncü dərəcəli şəhər Rus məktəbində alıb. O, 1866-cı ildə Bakıya gəlib. Sentyabr ayında imtahan verməklə Bakı 4-sinifli məktəbinə daxil olub (bu məktəb sonra "real gimnaziya", daha sonra isə "real məktəb" adlanıb). Burada Nəcəf bəy Vəzirovla bir yerdə oxuyub. Ən sevimli müəllimlərindən olan Həsən bəy Zərdabi onlara təbiət tarixindən dərs deyib.[3]

Adıgözəlov Bakı edadı (real) məktəbini 2 iyun 1874-cü ildə qızıl medalla bitirib və həmin il ali təhsil almaq üçün Sankt-Peterburqa gedib. 28 avqust 1874-cü ildə "Gəncə valiliyinin mülkədarı Əsgər bəy Adıgözəlov" bu şəhərdən (Bolşoy Samsonyevski prospekt, ev 20, mənzil 11) Dövlət Əmlakı Nazirliyi İdarəçisi knyaz Livenə bu məzmunda ərizə yazıb:

1 Gül Banu Duman- Rovshan Mammadov, *Başlangıçtan* Günü*müze Azerbaycan çocuk Edebiyatı* (Ankara: Bengü Yayınları, 2022), 47.
2 K. Tarverdiyeva, Əsgər Ağa Adıgöz*əlov Gorani* (Bakı: İşıq Nəşriyyatı, 1977), 4.
3 Mərdanov M-Tahirzadə Ə., *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı* (Bakı: Təhsil Nəşriyyatı, 2018), I/78.

*O, Dövlət Əmlakı Nazirliyinin icazəsi ilə sınaq imtahanı verdikdən sonra 25 sentyabr 1874-cü ildə İnstituta götürülüb.* [4] *23 noyabr 1874-cü ildə Əkinçilik İnstitutunun direktoruna ərizəsində göstərib ki, evdən məni çağırdıqları haqqında teleqram aldığıma görə mənə Gəncəyə getmək üçün 10 yanvar 1875-ci ilədək məzuniyyət verməyinizi xahiş edirəm. Ona icazə verilib, ancaq Gəncədən vaxtında geri dönmədiyinə görə 3 fevral 1875-ci ildə İnstitutdan xaric edilib.*[5]

11 may 1875-ci ildə direktora yazdığı ərizəsində bu ilin payızında ondan 3-cü kursun imtahanlarını, 12 mayda yazdığı ərizəsində isə 23 mayda 2-ci kursun kimya imtahanını, 27 mayda meşəçilik ensiklopediyasından, 31 mayda isə ümumi texnologiyadan imtahan verməsinə icazə istəyib. Ancaq artıq məktəbdən çıxarıldığı üçün ona bu icazə verilməyib. 23 iyul 1875-ci ildə direktora müraciətlə sənədlərini geri istəməklə bərabər, İnstitutda tələbə olması haqqında arayış verilməsini xahiş edib. 24 iyulda attestatını, 2 doğum şəhadətnaməsini və çiçək peyvəndi edilməsi haqqında arayışı İnstitutdan götürüb və bununla da Peterburqla vidalaşıb.

Sinif yoldaşı Nəcəf bəy Vəzirovla birgə Moskvaya gəlib. Pyotr Əkinçilik və Meşə Akademiyasına daxil olmağa hazırlaşıblar. Müəllimi, sonralar isə yaxın dostu və məsləkdaşı olmuş Həsən bəy Zərdabiyə ünvanladığı məktublarının birində Vəzirovla bir yerdə yaşayıb hazırlaşmalarından yazıb.

Adıgözəlov 30 sentyabr 1875-ci ildə Pyotr Əkinçilik və Meşə Akademiyası direktoruna yazdığı ərizəsində Akademiyanın kənd təsərrüfatı bölümünə qəbul edilməsini istəyib. Ancaq Akademiya rəhbərliyinin birbaşa tələbə götürmək hüququ yoxdu – buna nazirlik icazə verməli idi. Ona görə də 8 oktyabr 1875-ci ildə dövlət əmlakı naziri Valuyevə ərizə yazıb ki, Qafqaz mülkədarı kimi öz mülklərimdə təsərrüfatımın idarəsini yaxşılaşdırmaq, eyni zamanda başqalarına da yardım göstərmək, bütövlükdə Vətənə xidmət üçün kənd təsərrüfatı haqqında elmlərə hədsiz ehtiyacım olduğuna görə məni Pyotr Əkinçilik və Meşə Akademiyası tələbələri sırasına götürməyinizi xahiş edirəm.

Gec müraciət etməyinin səbəbini belə aydınlaşdırıb ki, Sankt-Peterburq Əkinçilik İnstitutunun tələbəsi olarkən xəstələnmişəm (bu haqda həkimdən arayışı da var), Peterburqun iqlimi mənə düşmür, Moskvanınkı isə daha qurudur. Həm də Pyotr Akademiyası mənim təhsil almağıma da uyğun gəlir. Belə ki, işə salınmış Bakı-Tiflis dəmiryolu bizim malikanədən keçir.

1875-ci ilin oktyabrında Pyotr Akademiyasına götürülmüş Adıgözəlov burada 4 il oxuyub. Tələbə yoldaşlarından biri Nəcəf bəy Vəzirov idi.[6]

Akademiyada oxuduğu illərdə Nəcəf bəy, Seyid Əzim Şirvani, Əhsənül-Qəvaid, Məhəmmədtağı Əlizadə və b. ilə birlikdə "Əkinçi" qəzetinin fəal müxbir və müəlliflərindən olub. Əsgər bəy bədii yaradıcılıqla da məşğul olub. O, Puşkin və Lermantovun əsərlərinin ana dilimizə ilk tərcüməçilərindəndir.

Pyotr Əkinçilik və Meşə Akademiyası Şurasının 13 may 1878-ci il tarixli qərarı ilə ona kənd təsərrüfatı üzrə həqiqi tələbə rütbəsi haqqında attestat verilib. Bu attestat yiyəsinin Rusiya universitetlərinin həqiqi tələbələrinin bütün imtiyazlarından istifadə etmək hüququ vardı. Akademiyanın bu attestatı universitetlərin diplomuna bərabər idi, çünki buna əsasən Adıgözəlov ali təhsilli mütəxəssis kimi mühüm dövlət idarələrində qulluq edilib.

16 may 1878-ci ildə Vətənə dönüb, ancaq kənd təsərrüfatı sahəsində işləyib. Həmin ilin noyabr ayının 3-dən 1907-ci ilə qədər, təxminən 30 il ədliyyə orqanlarında fəaliyyət göstərib. O, uzun illər Gəncə, Suxum, Cəbrayıl, Kutais, Tiflis və Zaqafqaziyanın başqa şəhərlərində məhkəmə sistemində müxtəlif rütbələrdə çalışıb. Gəncə valiliyi qəza sülh hakiminin köməkçisi, Tiflis Dairə Məhkəməsində prokuror nəzarətində prokuror müavini olub. Valilik (quberniya) katibi, kollej müşaviri, mülki müşavir rütbələri daşıyıb.[7]

4 Mərdanov - Tahirzadə, *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı*, 79.
5 Mərdanov - Tahirzadə, *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı*, 79.
6 Mərdanov - Tahirzadə, *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı*, 80
7 Mərdanov - Tahirzadə, *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı*, 82.

Gəncədə öz hesabına iki ibtidai, bir qız məktəbi açıb, bir ümumi, bir sarılıq xəstəliyinin mülicəsindən ötrü xüsusi xəstəxana açdırmışdır. Gəncəlilər Ə. Goraninin bu xidmətlərini əsla unutmamış, 1909-cu yaradılmış qız məktəbi rəsmi surətdə onun adını daşımışdır. Bu məktəbin ilk direktoru isə Xədicə xanım Ağayeva olmuşdur.

Xalq maarifinə göstərdiyi xidmətlər nəzərə alınaraq 1889-1890-cı illərdə Gəncədəki beşsinifli şəhər və Mixail məktəbinə fəxri müdir seçilib. 1906-cı ildə "Həyat" qəzeti bildirib ki, 17 yanvarda Gəncə Şəhər Dumasına seçkilər keçirilib. Əsgər bəy Adıgözəlov qolava (sədr), Əliəkbər bəy Rəfibəyov üzv, Fərəc bəy Baxşəlibəyov sekretar (katib) seçiliblər.

1907-ci ilin yazında Gəncə şəhərinin başçısı Əsgər bəyin evində müsəlman qurultayı keçirib. "Tərcüman" qəzetinin redaktoru, görkəmli jurnalist və ictimai xadim İsmayıl bəy Qaspıralının da qatıldığı bu nüfuzlu məclisdə "Daşnaksütun" partiyasına və ümumən ermənilərə qarşı mübarizə üçün tədbirlər işlənib hazırlanıb və 5 qərar qəbul edilib.

Adıgözəlov şəhər başçısı işləyərkən Azərbaycanlı ziyalıların çoxdankı arzusunu geçəkləşdirərək Nizami Gəncəvinin türbəsini öz xərcinə təmir etdirib. A.Bakıxanov bu barədə yazırdı: "Onun (Nizaminin) dağılmış olan çox gözəl türbəsi Gəncənin yaxınlığında indi də durur. Qarabağlı Adıgözəlbəy indi onu bərpa etdirir". Adıgözəl bəyin Nizaminin qəbrini bərpa etməsi XIX əsrin 40-cı illərinin əvvəllərinə təsadüf edir. Qeyd edək ki, vaxtilə babası da Nizami Gəncəvinin türbəsini öz hesabına bərpa etdirən şəxslərdən idi.

Şəhər başçısı Gəncə çayı sahilində gözəl, səfalı park saldırıb, şəhəri xeyli abadlaşdırıb.

Əsgər bəy bibisi qızı Əzzət xanım Tağıbəyova ilə ailə qurub, ancaq xoşbəxtliyi uzun sürməyib, çünki Əzzət xanım vəfat edib və o, uzun müddət dul qalıb. Təxminən 1900-cü ildə Bəyim xanım Əbülfət xan qızı Ziyadxanova (1875-1953) ilə evlənib. İkinci evliliyindən Danyal, Mikayıl, Əli, Leyla adlı övladları olub. Böyük oğlu Danyal ali təhsilli kənd təsərrüfatı mütəxəssisi idi. Ortancıl oğlu Mikayıl ömrünü hərbi xidmətdə keçirib, polkovnik rütbəsində istefaya çıxıb. Qızı Leyla 1933-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib, bir neçə il müəllim işlədikdən sonra Tibb İnstitutunda təhsil alıb. 1941-ci ildən həkim işləyib.[8]

Əsgər bəyin böyük qardaşı İsgəndər bəy təhsilə böyük önəm verdiyinə görə oğulları Rəşid bəy, İmamverdi bəy və Baxşəli bəyi Rusiya ali məktəblərində oxumağa göndərmişdi. Kiçik qardaşı Yusif bəy Fətəli xan Xoyskinin bacısı Tutubəyim xanımla evlənmişdi və ondan Nuşu xanım (1898-1958), Xosrov bəy (1903-1975), Dilşad xanım (1904-1950), Xasay bəy (1906-1943) adlı övladları olmuşdu. Ömrünün sonunadək Gəncədə ata-baba mülkündə yaşayan Adıgözəlov qısa sürən xəstəlikdən sonra 9 Mart 1910-cu ildə vəfat edib və Səbzikar məzarlığında dəfn olunub.

## 2. Əsgər Ağa Goraninin Ədəbi-İctimai Fəaliyyəti

Ə. Goraninin ömür yoluna nəzər salanda görürük ki, o, vətənini dərin, sonsuz məhəbbətlə sevmiş, xalqın maariflənməsi və tərəqqisi üçün əvəzsiz xidmətlər göstərmiş görkəmli ziyalılarımızdan biri olmuşdur. Xalqın ağır vəziyyəti, cəhalət və nadanlıqda qalması bir maarifpərvər ziyalı kimi Ə. Goranini həmişə düşündürmüşdü. O, əhalinin dözülməz ehtiyac içərisində yaşamasını hər şeydən əvvəl avamlıqda görür, bu vəziyyətdən xilas olmaq yollarını maarif və mədəniyyətin geniş intişar tapması ilə izah edirdi. Ona görə də milli mətbuatın yaranmasına, maarif və mədəniyyətin yüksəlməsinə, yoxsul Azərbaycanlı gənclərin təhsil almasına yardım göstərmək məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsinə böyük səy göstərmişdir.

Mətbuat məsələsində, eləcə də Azərbaycan maarifi sahəsində görüləcək hər işdə H. Zərdabiyə kömək etməyə hazır olduğunu bildirən Ə. Gorani "Kasıb müsəlman tələbələrinə yardım cəmiyyəti" yaratmaq, ümumtəhsil məktəbləri açmaq fikrini də ortalığa atır, bu işlər üçün tələb olunacaq vəsaiti ödəməyə hazır olduğunu, lazım gələrsə, başqalarını da bu işə cəlb edəcəyini bildirirdi.

8 Mərdanov - Tahirzadə, *1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı*, 83.

Azərbaycan dilində məktəb açmağa təşəbbüs göstərən ziyalılara kömək göstərmək məqsədilə Ə. Gorani tələbə ikən ana dilində dərsliklər tərtib etməyə başlamışdı. Doğrudur, bu dərsliklər hazırda əldə yoxdur.[9]

H. Zərdabiyə göndərdiyi məktublardan aydın olur ki, o, hesab və əlifba dərsliyi tərtib etmiş, baxılmaq üçün H. Zərdabiyə yollamışdır. H. Zərdabiyə yazdığı məktubunda bu haqda ondan soruşurdu: *Tatar (Azərbaycan) dilində yazılmış hesab və əlifba kitablarını aldınızmı? İndi mən tarix və coğrafiya dərsliklərini yazmağa hazırlaşıram. Məndə "Cahannamə" başlıqlı xəritəli böyük bir kitab var. Bunları həmin kitabdan götürmək istəyirəm...*[10]

Ə. Goraninin yazdığı digər məktublardan isə bəlli olur ki, onun tərtib edib göndərdiyi dərsliklər poçtun qeyri-müntəzəm işləməsi ucbatından H. Zərdabiyə çatmamış, itib batmışdır. O, 7 iyul 1877-ci ildə Həsənbəyə bu haqda şikayətlənərək yazırdı: *Aprelin 1-də göndərdiyim əlifba və hesab dərsliklərini almadığınıza çox təəssüf edirəm – gedən getdi... Bundan sonra sən gəl poçtdan nizamlı iş istə. Hər halda məktubla birlikdə əlifba kitabının qısa xülasəsini göndərirəm. Ümidvaram ki, faydasız olmaz.*[11]

Eyni zamanda Ə. Gorani "Qocalıqda yorğalıq" pyesinin və "Qara yel" romanının müəllifi olmuşdur. "Qara yel" romanı gəlib bizə çatmayıb, lakin bu əsər haqqında "Novoye obozreniye" qəzetində dərc edilən yazıdan məlum olur ki, əsər Ağa Məhəmməd şah Qacarın Zaqafqaziyaya hücumundan bəhs edir.

Ə. Gorani'nin bizə gəlib çatan əsəri "Qocalıqda yorğalıq" pyesidir. Bu əsər 1892-ci ildə Tiflisdə Kamal Ünsizadənin mətbəəsində Azərbaycan dilində çap olunmuşdur. Ə. Gorani Bakıda açılacaq məktəbin və göndərdiyi dərsliyin vəziyyətini öyrənmək məqsədilə başqa bir məktubunda soruşur: "Xahiş edirəm yazın görək: Bakıda açılacaq məktəbin nəticəsi nə oldu? Göndərdiyim hesab kitabı yarayırmı? Yeni əlifba məsələsini də sürətləndirin. Çox təəssüf edirəm ki, imtahanlarımın yaxınlaşması coğrafiya kitabımın tərcüməsini bitirməyə mənə imkan vermədi."

Gənc maarifçi hələ akademiyada oxuyarkən gələcək fəaliyyətinin proqramını hazırlamışdı. O, H. Zərdabiyə göndərdiyi məktublarının birində təhsilini başa çatdırdıqdan sonra görəcəyi işlərin planı ilə onu tanış edərək yazırdı: *Gələn il təhsilimi bitirdikdən sonra qəti qərarım var ki, Gəncədə ana dilində jurnal nəşr etdirim və bunun bütün xərclərini öz öhdəmə götürüm.*[12]

Tarixi mənbələrdə o da rastımıza gəlir ki, Ə. Gorani Azərbaycandan Moskva, Peterburq və Kiyev şəhərlərinə təhsil almağa gedən gənclərə kömək edir, bəzilərini isə öz hesabına oxudurdu.

1878-ci ildə Həsənbəy Zərdabinin təşəbbüsü ilə Moskvada Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasının tələbəsi N.Vəzirov "İmdadiyyə" adlı bir dərnək təşkil edir. Ə. Gorani bu dərnəyin ən fəal üzvlərindən olur. "İmdadiyyə" dərnəyi Moskvada və Peterburqda oxuyan Azərbaycanlıları öz ətrafına toplayırdı. Dərnəyin fəaliyyətinin əsas məqsədi zülmü kökündən kəsmək üçün çoxlu mübarizlər hazırlamaq idi. Onlar cəhalət, nadanlıq və avamlıq əleyhinə mübarizə aparırdılar.

Ə. Gorani Gəncədə işləyərkən maarifçilik tədbirlərinin həyata keçirilməsində yaxından iştirak etmişdir. Ə. Gorani iki ilə yaxın bir müddətdə "Nəşri-maarif" cəmiyyətinin sədri olmuşdur. O, Rus, Fransız, Alman dillərinin mükəmməl bilicisi idi. Rusiyanı, Avropanı bütünlüklə gəzmiş, Parisdə isə dəfələrlə olmuşdu. Mənbələrə görə onun çox zəngin kitabxanası olmuşdur.[13] Həm də, Ə. Gorani foto həvəskarı idi.

### 3. Əsgər Ağa Gorani və Teatr

1873-cü ildə Zərdabinin başçılığı ilə Azərbaycan teatrının əsasının qoyulmasında Əsgər bəyin də rolu olub. Belə ki, bu gimnaziyada M. F. Axundza-

9 Tarverdiyeva, *Əsgər Ağa Adıgözəlov Gorani*, 10.
10 Tarverdiyeva, *Əsgər Ağa Adıgözəlov Gorani*, 10.
11 Tarverdiyeva, Əsgər Ağa Adıgözəlov Gorani, 10.
12 Tarverdiyeva, Əsgər Ağa Adıgözəlov Gorani, 11.
13 A. İsnayıloğlu, " Ziyalı ruhunun Edebiyyeti", *Medeniyet Az Jurnalı 3* (2016), 30-33.

dənin “Hacı Qara” komediyası ilk dəfə tamaşaya qoyularkən Hacı Qara rolunu Ə. Gorani ifa edib.[14] Hacı Qara rolunu məhz Ə. Goraninin oynaması barədə H. Zərdabi və N.Vəzirov öz yazılarında qeyd etmişlər.

Beləlikə, 1873-cü ildə realnı gimnaziyasının yuxarı sinif şagirdləri Ə. Gorani, N. Vəzirov və b. H. Zərdabinin rəhbərliyi ilə M. F. Axundzadənin “Hacı Qara” komediyasının ilk tamaşasını göstərməklə teatrımızın əsasını qoydular. Bu xeyirxah təşəbbüslə professional Azərbaycan teatrının tarixi başlanır.

Həsən bəy Zərdabi “Həyat” qəzetində dərc etdirdiyi “Bakıda müsəlman teatrının binası” adlı məqaləsində bu haqda yazır:

> *Mən Tiflisdə qulluq edən vəqtdə mərhum Mirzə Fətəli öz komediya kitabının bir cildini mənə göndərmişdir. Gimnaziyada əlliyə qədər müsəlman (Azərbaycanlı) şagirdlər var idi... Onlardan 10-15-i axırıncı klasda (sinifdə) idilər. Bir neçə gün onları yığıb Axundovun komediyalarını onlara oxuyub təvəqqə elədim ki, onlardan birini seçib oynasınlar. “Hacı Qara”nı seçdilər. Sonra rolları paylayıb, bayram günləri onları yığıb, öyrədəndən sonra elannamələr yazıb payladıq ki, flan günü, flan yerdə müsəlmanlar teatr çıxaracaqlar. Oynayanlardan hər kəs Bakıda olan qərib-qürəbalardan özlərinə paltar və qeyrə tapdılar. Otaqların bəzəklərini də özümüz qurduq. Əvvəlinci teatrımıza gələn çox az idi və hamısı qərib-qürəba idi. Oynayanlar çox yaxşı oynadı. Ələlxüsüs Əsgərbəy Adıgözəlov Hacı Qara rolunu...”. Biz Bakıda müsəlman teatrı çıxarmağımızı Tiflis qəzetləri yazmışdılar. Mərhum Mirzə Fətəli onu oxuyub, mənə bir uzun kağız yazmışdı və çox razılıq etmişdi ki, öz sağlığında onun komediyalarını müsəlmanlar öz türk dillərində çıxartdılar... Əvvəlinci teatrımız yaxşı çıxdığına görə Bakıda sakin olan, kənardan gələn müsəlmanların iltimasına görə “Hacı Qara”nı bir dəfə oynadıq... Sonra haçan gimnaziya uşaqlarının fəqirlərinə pul lazım olanda... teatr çıxarıb vüsul olan pulları paylayırdıq. Bu tövr ilə ildə iki-üç dəfə müsəlman bayramlarında teatr çıxardırıq”.*[15]

N. Vəzirov da öz tərcümeyi halında “Hacı Qara” əsərinin səhnə təcəssümü haqqında yazmışdır:

> *...Gimnaziya müəllimi... Məlikov Mərhum Mirzə Fətəli Axundovun “Hacı Qara” komediyasını tapdı. Bu komediyanı pansionda olan müsəlman şagirdləri ilə bir yerdə oynamaq üçün hazırlaşmağa başladıq. Hər gün nahardan sonra pansionun nahar otağında hazırlaşırdıq. Bizim hazırlaşmağımıza Həsənbəy Məlikov cənabları tamaşa edirdi. Hacı Qaranı sabiq Gəncə qlavası mərhum Əsgərbəy Adıgözəlov Gorani oynayırdı, mən isə arvad rolunu götürdüm. Bizim bu teatrımız camaata nəhayət dərəcədə xoş gəldi... Axundov iki vərəq dolu bir rizaməndlik kağızı yazmışdı. Axırda bunu əlavə etmişdi ki, “Mən sağkən komediyamın öz dilimizdə tamaşaya qoyulması mənim üçün xoşbəxtlikdir. Bu gün “Hacı Qara”nı öz dilimizdə göstərməklə mənim ömrümün üstünə on il daha artırdınız. Bu ilk tamaşanı öz gözlərimlə görmədiyim üçün çox təəssüf edirəm.*[16]

Bu faktiki yazıları daha ətraflı təqdim etməkdə məqsədim, bir çox tədqiqatçıların yanlış olaraq ilk tamaşa kimi “Vəzir-i xan-i Lənkəran”ı qəbul etmələridir. H. Zərdabi və N. Vəzirovun öz yazılarından isə bəlli olur ki, ilk tamaşa “Hacı Qara” olub və Hacı Qara rolunun ilk ifaçısı Əsgərbəy Adıgözəlov Gorani olmuşdur. Əldə etdiyimiz mənbələrin əksəriyyətində qeyd olunur ki, “Hacı Qara” və digər tamaşalar tez-tez göstərilmiş Əsgərbəy Gorani də müxtəlif rollarda çıxış etmişdir.

14 Tarverdiyeva, Əsgər Ağa Adıgözəlov Gorani, 6-7.
15 H. Zerdabi, “Bakıda müselman teatrının ninası”, *Hayat Gazeti* 115 (1905).
16 N. Vəzirov, *Qırx il...* (Bakı, 1913), 8-9.

## 4. Əsgər Ağa Goraninin Jurnalistlik Fəaliyyəti

Əsgər Ağa Adıgözəlov Goraninin Azərbaycan mətbuatının yaranmasında yaxından iştirakı xüsusilə əhəmiyyətlidir. Azərbaycanın ilk dövri mətbuatı olan "Əkinçi"nin nəşri digər maarifpərvər ziyalıları kimi Ə. Goranini sevindirmiş və burada o, fəal iştirak etmişdir.

S. Ə. Şirvani Həsənbəyə yazdığı bir məktubunda Azərbaycan xalqının maariflənməsində böyük rol oynaya biləcək ziyalıların adlarını çəkir. Bu məktubda N. Vəzirovla yanaşı Əsgər Ağa Goraninin də adını xüsusi qeyd edir. Ə. Gorani Moskvada oxuduğu illərdə H. Zərdabi ilə sıx əlaqə saxlamış "Əkinçi"də yaxından iştirak etmişdir. Onun "Əkinçi"də 40-dək məktubu dərc olunmuşdur. Qəzetin bütün şöbələrində onun məktublarına rast gəlmək mümkündür.[17]

Ə. Goranini "Əkinçi" qəzetinin yaşaması üçün abunəçi məsələsi daim düşündürmüş və özü də qəzetə abunə olmuşdur.

Həmçinin Ə. Goranini "Əkinçi"nin çapı zamanı yaşanan mətbəə çətinlikləri də daim narahat etmiş bunun üçün H. Zərdabiyə yardım göstərmişdir. Məsələn, məktublarının birində oxuyuruq:

> *"Şriftlərə aid olan məsələni bir həftədən sonra ətraflı yazıram. Amma əvvəldən qeyd edim ki, bütün bu xərcləri sizə təkbaşına çəkmək heç vəchlə mümkün deyil. Mən bu işdə sizə şərik olmağı öhdəmə götürürəm. Ümid edirəm ki, bu yaxınlarda məktub aldığım İsmiyev də kömək etməkdən imtina etməz. Beləliklə, kiçik bir cəmiyyət təşkil edib, nəhayət çoxdan arzu olunan xəyalı həyata keçirmək məqsədəuyğun olardı. Hər halda bundan sonra yeni hərflər haqqında mənə məlumat verin ki, bir qədər yenilərini sifariş etmək mümkün olsun".*[18]

"Əkinçi" ilə əməkdaşlıq etdiyi dönəmdə ən çox kənd təsərrüfatına aid məqalələr yazır, həmvətənlərini qabaqcıl kənd təsərrüfatı bilikləri ilə məlumatlandırmağa, təsərrüfatlarını, məişətlərini yeni qaydalar əsasında qurmğa kömək etməyə, beləliklə onların ağır zəhmətlərini yüngülləşdirməyə çalışırdı.

"Elm xəbərləri" şöbəsində Ə. Goraninin qəbirstanlığa yaxın yerdə su quyularının qazılmasının zərərindən, mal-qaranı saxlamağın yeni üsullarından, Şərq xalqlarının elmsizliyinin səbəblərindən, telefonun və stenoqrafiyanın ixtirasından, tarix elminin inkişafı məsələlərindən bəhs edən maraqlı yazıları verilmişdir.[19]

"Məktub" şöbəsində dərc etdirdiyi yazılarının birində (1875, №8) Ə. Gorani Bakı-Tiflis dəmir yolunun çəkilməsi ilə əlaqədar dövlətin qərarından, dəmir yolunun keçəcəyi yerlərdən məlumat verir. Başqa bir məktubunda isə Peterburq kənd təsərrüfatı muzeyindən danışır. Muzeyin şöbələri, eksponatları haqqında məlumat verir, belə mədəni ocaqların əhəmiyyətini göstərir.

Ə. Gorani qəzetdə təzə xəbərlər yazmağa çox meyl edirdi. Bu xəbərlər böyük təbliğat gücünə malik idi. O, öz xalqında maarif və mədəniyyətə rəğbəti özünəməxsus üsulla oyadırdı. Məsələn, "Əkinçi"nin 1876-cı ildə çıxan birinci nömrəsində Ə. Goraninin Pterburq padşahlıq kitabxanasından bəhs edən məqaləsi verilmişdir. Müəllif göstərir ki, bu kitabxanada 900 min basma, 30 min yazma kitab və 75 min kitab surəti saxlanılır. Qiymətli nüsxələr şüşə altında nümayiş etdirilir. "Əgər bir kəs bilsə ki, filan kitab yoxdur, o vaxt deyə bilər ki, onu tapıb iki həftənin müddətində ona oxumağa versinlər. Hər yekşənbə günü kitabxananı hər kəs gəzib tamaşa edə bilər...".

Ə. Gorani rusca çıxan qəzet və jurnallardan maraqlı xəbərləri tərcümə edib "Əkinçi"yə göndərirdi. Onun "Znaniye" jurnalından, "Texniçeski sbornik"dən tərcümələri də məlumdur. Ə. Goraninin tərcümələrinə H. Zərdabi tələbkarlıqla yanaşır, bəzi məqalələri yenidən işləmək üçün özünə qaytarırdı. Məsələn, qəzetin 28 aprel 1876-cı il tarixli 8-ci nömrəsində çıxan bir məktubun maraqlı tarixçəsi vardır. Ə. Gorani hələ Peterburqda olarkən müxtəlif mənbələrdən istifadə edərək

17 N. Zeynalov, *Azərbaycan mətbuat tarixi* (Bakı: ADU Nəşriyyatı, 1973), 25.
18 Tarverdiyeva, Əsgər Ağa Adıgözəlov Gorani, 23.
19 Zeynalov, *Azərbaycan mətbuat tarixi,* 24-25.

“Hollandiya vilayətində necə pendir qayırırlar” ünvanlı məktub hazırlayıb göndərmişdi. Müəllif özü tərcümənin zəif olduğunu başa düşüb H. Zərdabiyə yazmışdı: *О сыроделии в Голандии” məqaləsini “şorsuyu” tərcümə etmişəm. Bilmirəm düzdürmü?*[20]

Əslində məktub maraqlı və məzmunlu idi. Lakin pendir hazırlamağın üsulları təsvir edilən yerlər oxucu üçün qaranlıq və anlaşılmaz olacaqdı. Bunu nəzərə alaraq H. Zərdabi müəllifin razılığı ilə məqaləni yenidən işləmiş, sadə bir dildə oxucuya çatdırmışdır. H. Zərdabi müəllifləri bu yolla sadə yazmağa təşviq edirdi. “Əkinçi” qəzetinin bütün nəşri boyu Ə. Gorani onun fəal müxbiri olmuşdur.

Ə. Goraninin publisist məqaləri “Əkinçi”nin “Məktubat”, “Elm xəbərləri”, “Əf ali-əhli-dəhat” şöbələrində dərc edilmişdir. Ə. Gorani bütün varlığı ilə “Əkinçi”yə bağlı olmuşdur. Aparılan araşdırmalar nəticəsində bəlli olur ki, Ə. Goraninin “Əkinçi” qəzetində 40-dək məktubu dərc olunmuşdur.

## Nəticə

Ə. Gorani Azərbaycan xalqının təhsil və mədəniyyətinin inkişafında, mətbuatımızın təşəkkülündə müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Ə. Goraninin həyatda əsas amalı xalqın maariflənməsi, ictimai şüurun inkişaf etdirilməsi olmuş və bunun üçün də təhsilin vacibliyini xüsusi qeyd etmişdir. Məhz bu səbəbdən daim həm mənəvi həm də maddi cəhətdən öz həmvətənlərinə dəstək olmuşdur. Ə. Goraninin bütün ictimai-siyasi, mədəni fəaliyyətində Vətənə məhəbbət duyulmaqdadır. Ə. Goraninin maddi cəhətdən imkanının yaxşı olması, onun xeyirxah işlərdə iştirak etməsinə səbəb olmuşdur. Apardığımız tədqiqat nəticəsində bəlli olur ki, Ə. Gorani Moskvada kasıb tələbələrin oxumasına maddi cəhətdən dəstək olmuş, hətta oynalınan tamaşalardan əldə olunan pulları onlara ianə etmişdir. Ə. Goraninin Rus və Avropa dillərini yaxşı bilməsi onun bir tərcüməçi kimi də fəaliyyət göstərməsinə əsas olmuşdur.

Həsən bəy Zərdabi Ə. Goraninin müəllimi olmuş, lakin sonralar da onunla əlaqəni kəsməmiş, “Əkinçi” qəzetinin yaranmasında, inkişafında onun da müstəsna xidmətləri olmuşdur. Məhz bu qəzetlə əməkdaşlıq onun jurnalistlik bacarığını da üzə çıxarmışdır.

Azərbaycan dilində dərsliklərin hazırlanmasında da Ə. Goraninin böyük zəhmət çəkdiyinin şahidi oluruq. Eyni zamanda tədqiqatlardan bəlli olur ki, Ə. Gorani Gəncədə öz hesabına ibtidai və qız məktəbləri, həmçinin xəstəxana da açdırmışdır. Hər bir dövrdə maarifpərvər insanlar olmuş və onların çətinliklərə sinə gələrək gördüyü işlər əvəzsizdir. Onların sayəsində cəmiyyət tərəqqi edib, irəliləyişlər baş verib. Məhz bu şəxsiyyətlərin həyatının araşdırılması, tədqiq edilməsi öyrənilməsi olduqca vacibdir.

## Ədəbiyyat

### 1.Kitablar

Duman, G. B. – Mammadov, Rovshan. *Başlangıçtan Günümüze Azerbaycan Çocuk Edebiyatı*. İstanbul: Bengü Yayınları, 2022.

Kazımlı, Gülhüseyn. *Karanlıktan I*şığa. Bakü: Şuşa Neşriyatı, 2016.

Mərdanov, Misir – Tahirzade, Edalet. *1920-ci İledek Ali Mekteblerde Okumuş Azerbaycanlılar: Ensiklopedik S orag Kitabı. 1. cilt*. Bakü: Tehsil Neşriyatı, 2018.

Tarverdiyeva, Kövser. *Asker* Ağa Adıgöz*elov Gorani*. Bakü: İşıg Neşriyatı, 1977.

Vəzirov, Necef Bey. *Qırx il*... Bakü, 1913.

Zeynalov, Neriman. *Azerbaycan Metbuat Tarihi*. Bakü: ADU Neşiyatı, 1973.

### 2.Məqalələr

Zerdabi, Hesen Bey. “Bakıda Müsəlman Teatrının Binası”. *Heyat Gazetesi* (1905), *115*.

İsmayıloğlu, A.“Ziyalı ruhunun Əbədiyyəti”. *Mədəniyyət Az Jurnalı* (2016), *30–33*.

20 Zeynalov, *Azərbaycan mətbuat tarixi*, 26.

**Şekil 1. Uşaq hifzüsehhesi**




**Şekil 2. Əvvəli hənək, axırı dəyənək**




**Şekil 3. Uşak Hifzüsehhesi**



**Şekil 4.**




**Şekil 5.**

